

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 228 (21.889)

1 dekabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycanın və Türkiyənin regional əməkdaşlığa verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev bu baxımdan bütün üçtərəfli əməkdaşlıq formatlarında ölkələrimizin iştirak etməsinin önəmini qeyd edib.

Söhbət zamanı "Asiyanın Qəlbi – İstanbul Prosesi" konfransının Azərbaycanda keçirilməsinin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Prezident İlham Əliyev noyabrın 30-da Pakistan İslam Respublikasının xarici işlər naziri Xavaca Məhəmməd Asifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Hindistan Respublikasının xarici işlər üzrə dövlət naziri Mobaşar Caved Akbarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## R.İ.Səfərovanın Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Xarici əlaqələr şöbəsinin müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Röya İsa qızı Səfərova Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Xarici əlaqələr şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 dekabr 2017-ci il*

## AMEA Naxçıvan bölməsində növbəti interaktiv dərs təşkil olunub

***AMEA Naxçıvan Bölməsində "Klassik genetikanın əsasları" mövzusunda interaktiv dərs təşkil olunub.***

İnteraktiv dərsi AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşı, aqrar elmlər üzrə elmlər doktoru, dosent Varis Quliyev aparıb.



Bildirilib ki, genetika irsiyyət və dəyişkənlik haqqında elmdir, irsi informasiyaların qorunub saxlanması və gələcək nəsillərə ötürülməsindən bəhs edir. Genetika biologiya fənləri içərisində əsas yerlərdən birini tutur. Müasir genetika irsiyyət və dəyişkənlik hadisələrini zoologiya, botanika, seleksiya, bitkiçilik, heyvandarlıq kimi bioloji və digər sahələrin nailiyyətlərinə əsaslanaraq öyrənir. Genetik tədqiqatlar biologiyanın nəzəri sahəsini, habelə zootexnikanı, baytarlığı, kənd təsərrüfatı heyvanlarının seleksiyasını, bitkilərin seleksiya və toxumçuluğunu, tibbi xeyli zənginləşdirib. Virusları, bakteriyaları, göbələkləri, bitki və heyvan hüceyrələrini orqanizmdən kənar becərmək və onların nuklein turşularını öyrənmək, orqanizmlərin həyat fəaliyyəti prosesində genlərin təsirinin qanunauyğunluqlarını müəyyən etməyə imkan verir.

Varis Quliyev genetikanın inkişaf tarixi, tədqiqat üsulları, bu elm sahəsində işlədilən şərti işarələr, əsas genetik anlayışlar, eləcə də Q.Mendelin qanunları haqqında şagirdlərə ətraflı məlumat verib.

Qeyd edək ki, dərsi muxtar respublikanın 203 ümumtəhsil məktəbinin şagirdləri izləyiblər.

**Xəbərlər şöbəsi**

## Təlim toplantısı davam edir

Bu ilin döyüş hazırlığı planına əsasən Əlahiddə Ümumqoşun Orduda snayperlərin təlim toplantısı keçirilir. Toplantıda əsas diqqət kəskin relyef və iqlim şəraitinə malik olan Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərmək üçün şəxsi heyətə yüksək dözümlülük, təmkinlik, fiziki hazırlıq kimi xüsusiyyətlərin aşılanmasına yönəldilib.



Məşğələlər zamanı hədəfin aşkar edilməsi, hədəfə gizli yaxınlaşma, atəş mövqeyi seçmə, maskalanma, atəş üçün ilkin məlumatların hazırlanması, sərrast atəşlə şərti hədəfin məhv edilməsi və digər fəaliyyətlər diqqətdə saxlanılır.

Əlahiddə Ümumqoşun Ordunun silahlanmasındakı müxtəlif ölkələrin, eləcə də milli müdafiə sənayemizin istehsalı olan müasir snayper tüfəngləri tapşırıqdan, ərazidən, məsafədən və digər amillərdən asılı olaraq təyinatına görə tətbiq edilir.

**Nəriman NƏCƏFOV**

## Daha bir yaşayış məntəqəsi müasir kəndlər sırasına qoşulur

***Bu il Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində genişmiqyaslı quruculuq işləri aparılıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçirilən bu tədbirlər kəndin simasını əsaslı surətdə dəyişib. Kənddə aparılan quruculuq işləri çərçivəsində bu yaşayış məntəqəsinin girəcəyindən başlayaraq Qaraçuğa qədər gedən yol genişləndirilib, keyfiyyətli asfalt örtüyü salınıb, səkilərə kilid daşlar düzülüb, işıqlandırma sistemləri quraşdırılıb.

Yaşayış məntəqəsində həyata keçirilən kompleks quruculuq tədbirlərindən biri kənd məktəbi üçün inşa olunan yeni binadır. Binanın tikilməsində kəndin gələcək perspektivi nəzərə alınıb. Hazırda məktəbin binasında avadanlıqlar quraşdırılır. Binanın ətrafında yaşıllaşdırma və abadlaşdırma işləri həyata keçirilib, ağac tingləri və gül kolları əkilib.



Kənddə inşası başa çatdırılan digər bir obyekt isə bu yaşayış məntəqəsində fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada işləri yekunlaşdırıblar. Mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, polis sahə və baytarlıq məntəqələrinin fəaliyyəti üçün hər cür şərait yaradılır. Həmçinin burada rabitə evi və poçt bölməsi də fəaliyyət göstərəcək. Kənd mərkəzinin binasında səhiyyə məntəqəsi üçün də otaqlar ayrılıb. Bu isə sakinlərə göstəriləcək səhiyyə xidmətinin səviyyəsini yüksəldəcək.

Kənd sakinləri ilə söhbət zamanı onlar burada inşa olunan xidmət mərkəzini növbəti dövlət qayğısı kimi dəyərləndirdilər. Qeyd edək ki, burada sənaye malları mağazası, ət satışı yeri və müxtəlif iaşə xidməti sahələri fəaliyyət göstərəcək.

## Yeni bina inşa olunur



*Babək rayonu Babək qəsəbəsinin Heydər Əliyev prospektində yeni yaşayış binası tikilir.*

Bina zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olacaq. 28 mənzilli binanın 7-si 3, 21-i isə 2 otaqlı mənzillərdir. Burada lift də quraşdırılacaq. Binanın zirzəmisində ərzaq, kişi və qadın geyimləri mağazaları, bərbər, gözəllik salonu yerləşəcək.

Yeni tikilən binada ipoteka kreditləri ilə də mənzil almaq mümkün olacaq.

Qeyd edək ki, bu gün muxtar respublikada gənc ailələrə mənzillər həm də ipoteka kreditləri ilə verilir. "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən indiyədək 60-dan çox ailəyə ipoteka krediti ilə mənzil satılıb.

## Vergilər sahəsində maarifləndirici tədbirlər aparılır

***Culfa Rayon Vergilər Şöbəsində vergi ödəyicilərinin iştirakı ilə "Nağdsız ödənişlər və POS-terminallardan istifadə", "Elektron qaimə-fakturaların tətbiqi və asan imza" mövzularında maarifləndirici tədbir keçirilib.***

Tədbirdə rayon Vergilər Şöbəsinin rəisi, vergi xidməti müşaviri Qurban Hacıyev çıxış edərək bildirib ki, nağdsız ödəniş pul və pul vəsaitlərinin nağd olmadan banklar və səlahiyyəti olan digər maliyyə mənbələri vasitəsilə həyata keçirilən pul dövriyyəsinin formasıdır. Təbii ki, bunun üçün etibarlı əməliyyat sistemi, geniş texniki imkanlar və subyektlər arasında inam olmalıdır. Nağdsız ödəniş sistemi maliyyə vəsaitlərinin dövriyyəsinin sürətlənməsi, nağd pul kütləsinin ixtisarı, ödəniş məbləğinin dəqiq aparılması kimi iqtisadi, vaxt itkisinin aradan qaldırılması, pul itirməmək kimi sosial əhəmiyyətli üstünlüklərə malikdir. Çünki, əsasən, bankların və digər maliyyə təşkilatlarının yaratdığı sistem vasitəsilə həyata keçirilən nağdsız ödəniş əməliyyatlarında bütün hüquqi və fiziki şəxslər sərbəst şəkildə iştirak etmək imkanlarına malik olurlar.



Bildirilib ki, əvvəllər sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasından istifadə olunurdu ki, bu da əksər hallarda vergidənyayınma hallarına şərait yaradırdı. Bütün bu amillər hüquqi çərçivədə də dəyişiklikləri və elektron qaimənin tətbiqini labüd etdi. Məhz bu baxımdan elektron qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınması, məlumat mübadiləsinin çevikliyinin artırılması və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Sonra rayon Vergilər Şöbəsinin əməkdaşlarından Əleyxa Cəbiyevin və Məcnun Hacıyevin çıxışları olub. Çıxışlarda tədbir iştirakçılarına elektron qaimə-fakturalarının tətbiqi, mahiyyəti və işlənmə qaydaları haqqında məlumat verilib.

Sonda elektron qaimə-fakturalarının onlayn rejimdə göndərilməsi ilə bağlı slayd nümayiş etdirilib.

**✍ Səbuhi HÜSEYNOV**

*Şərur rayonunun Şahbulaq kəndində bir neçə dəfə olmuşam. Bir neçə il əvvəl müasirliyə qovuşub. "Abad yurd yolundan tanınar", – deyimi buna ən gözəl misaldır. Müasir tələblər səviyyəsində yenidən qurulmuş yol şahbulaqlılara dövlətimizin böyük qayğısıdır, 2013-cü ildə istifadəyə verilib. Həmin il bu sərhəd yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri həyata keçirilib.*

*Müasirləşən kəndlərimiz*

## Sərhəd kəndində bir gün



Zəngin təbiətə, saf suya və təmiz havaya malik olan, rayon mərkəzindən 22 kilometr məsafədə yerləşən Şahbulağın axarlı-baxarlı yerində görünən kənd məktəbinin binasıdır. Məktəbin direktoru Salman Cəfərov söhbətə şahbulaqlı uşaqların dərsə, məktəbə, təhsilə olan həvəsindən söz açmaqla başlayır:

– Bu balaca kənddən 30 nəfərdən çox ali təhsilli mütəxəssis Bakıda, Naxçıvanda, Şərur şəhərində göstərilən etimadı doğruldur. Son dövrlərdə elə il olmayıb ki, məzunlarımız ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərməsinlər. Ötən dərs ilində kənd məktəbini üç məzun bitirib, üçü də ali məktəblərdə təhsillərini davam etdirir. 110 şagird yerlik məktəbdə 47 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 21 müəllim məşğul olur.

Salman müəllim təkcə təzə tikilən məktəbdən, burada şagird və müəllimlər üçün yaradılan şəraitlə yanaşı, ümumiyyətlə, Şahbulağa və şahbulaqlılara göstərilən dövlət qayğısından ürəkdolusu söhbət açır:

– Kənd mərkəzinin tikilməsinin əhəmiyyətini hamı yaxşı bilir. Hər şey insanların rahatlığı üçündür, amma ucqar, həm də sərhəd kəndində bunun başqa bir önəmi var. Sakinlər görürlər və öz həyatlarında hiss edirlər ki, dövlət onları unutmayıb, yaddan çıxarmayıb, necə deyərlər, dövlətin əli həmişə onların çiynindədir.

Bəhs olunan dövrdə Şahbulaqda kənd və xidmət mərkəzləri də tikilib. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, klub, kitabxana, rabitə evi, baytar otağı, polis və feldşer-mama məntəqələri var. Bir sözlə, kənd camaatına nə xidmət lazımdırsa. Kompleks quruculuq tədbirləri çərçivəsində üç min metr uzunluğunda elektrik və qaz xətləri çəkilib, telefon xidmətini daha da yaxşılaşdırmaq məqsədilə yeni ATS quraşdırılıb. Bunlar ucqar dağ kəndlərimizdən birinə Azərbaycan dövlətinin göstərdiyi böyük qayğıdır. Belə kəndlərimizin isə sayı-hesabı yoxdur.

Kəndin yaşlı sakinləri İsmayıl Bağırov, Həbili Cəfərov bu sərhəd yaşayış məntəqəsində yaşanmış ağır günlərə qayıdırlar. İsmayıl kişi deyir ki, 1988-ci ildə başlanan hadisələrdə bir şahbulaqlı belə, kəndi tərk etmədi. Ov silahları ilə kəndi qoruduq. O vaxt Şahbulaq gözdənuzaq, könüldənıraq düşmüş bir kənd idi. Problemlər başdan aşırdı. Məktəb pis vəziyyətdə, mağazada ən adi tələbat malları yox, rabitə gah olur, gah olmurdu. İşıqdan, normal istilikdən isə danışmağa dəyməz. Bununla belə, kənd adamları dözdülər, çətinliklərə sinə gərdilər.

Həbili kişi deyir ki, bir səhər gözümüzü açıb kənddə inşaatçıları gördük. Şahbulağın üzünə o gün, necə deyərlər, gün doğdu.

Kənd adamları ilə söhbətdən gəlinən qənaət budur: Şahbulaq mənfur ermənilərlə üz-üzə dayanan yaşayış məntəqələrimizdən biri olsa da, heç bir şahbulaqlı burada özünü narahat hiss etmir. Milli Ordumuzun əsgərləri kəndin, kənd adamlarının keşiyindədir. Bu da yaşayış məntəqəsində həyatın öz qaydası ilə davam etməsini şərtləndirib. Şahbulaqda insanlar heyvandarlıq, arıçılıq, əkinçiliklə məşğul olur, məhsul bolluğu yaradırlar. Bunun üçün hərtərəfli imkanlara malikdirlər.

Salman müəllim burada əsgəri borcunu yerinə yetirən eloğullarımızla əlaqələrdən də danışır. Deyir ki, bu gün orta məktəb partası arxasında təhsil alan şagirdlərin vətənpərvərlik ruhunda formalaşdırılması üçün belə əlaqələrin böyük əhəmiyyəti var. İkinci bir tərəfdən, orduda xidmət edən əsgərlər görürlər ki, onların arxasında xalq dayanıb. Belə birlik, inşallah, böyük qələbəmizi də təmin edəcək.

Müsahibim şahbulaqlıların keşiyində dayanan əsgərlərin yanına getmək təklifimi yerə salmır.

Yol alırıq kənddəki hərbi hissəyə. Başımı qaldırıb ətrafa baxıram. Ağsal, Suludərə, Uzungüney, Qaravulxana kəndin keşiyini çəkir. Möhtəşəmlik mücəssəməsi olan bu dağlar həm də kəndin vüqar rəmzidir. Bir qədər aralıda düşmənlərimizdir. Onlara gözdağı olan isə kənddəki hərbi hissədir. Müasir və müstəqil Azərbaycanın nizami ordusunun nümunəvi bir hissəsi.

Bölük komandiri Elgiz Mədətov deyir ki, Naxçıvan Muxtar Respublikasında əsgər və zabitlərin nümunəvi xidmət və qulluğu üçün hərtərəfli şərait yaradılıb. Müasir tələblər səviyyəsində qurulmuş yeməkxana, anbar ilk baxışda səliqə-sahmanı, gigiyenik-sanitar qaydalara cavab verməsi ilə diqqəti cəlb edir. Əsgərlərin asudə vaxtlarının səmərəli keçirilməsi təmin olunub. Bundan əlavə, şəxsi heyətin fiziki sağlamlığının təmin edilməsi məqsədilə hərbi hissənin həyətində lazımi idman qurğuları quraşdırılıb. Əsgərlər müntəzəm olaraq idmanla məşğul olur, fiziki hazırlıqlarını artırırlar.

Onun sözlərinə görə, əsgərlərin mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılır. Azərbaycanın, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müxtəlif zamanlarda hərbi müdaxilələrə məruz qalması, əsasən, ordumuzun yeni formalaşdığı dövrlərə təsadüf edib. Elə ötən əsrin 90-cı illərinin əvvəllərində erməni hərbi birləşmələrinin muxtar respublikanın sərhədlərinə mütəmadi hücumlarının əsas hədəfi də bu qədim türk yurdunun işğal edilməsi məqsədini daşıyırdı. Əsgərlərə o da çatdırılır ki, məhz ulu öndər Heydər Əliyevin Naxçıvanda ordu quruculuğuna başlaması ermənilərin bu xülyasının qarşısını aldı. Bu gün əsgərlər qarşısında duran başlıca vəzifə sərhədlərimizin etibarlı qorunmasıdır.

Əsgərlərlə söhbət edirəm. İlk ünsiyyətdən onların döyüş hazırlığına, yüksək vətənpərvərliyinə, dövlətə, xalqa bağlı olduqlarına heç bir şübhəm qalmır. Əsgər Pənah Hacıyev Yevlax rayonundandır. Deyir ki, bütün əsgərlərin arzusu torpaqlarımızın düşməndən azad edilməsidir. Arzu edirik ki, bu, bizim hərbi xidmət dövrümüzə düşsün! Və əlavə edir ki, buraya gəlməmişdən Naxçıvan haqqında çox az məlumatı olub. Bu diyarın təbiətinin zənginliyindən, insanlarının səmimiyyətindən və qonaqpərvərliyindən ürəkdolusu danışır. Burada əsgərlər üçün yaradılmış şəraitdən də razılıq edir:

– Xidmətimi başa vurmağa çox az vaxt qalıb. Ancaq arxada qalan günlərin necə keçdiyini hiss etmədim. Çünki burada yüksək nizam-intizam, əsgərə qayğı gördüm, Naxçıvanda xidmət etməyimdən şərəf duydum. Hərbi hissədə Azərbaycanın müxtəlif bölgələrindən xidmətə gələnlər çoxdur. Sevinirəm ki, Naxçıvanda özümə xeyli dost tapmışam. Bu qədim diyardakı təmizlik, tarixi abidələr, quruculuq tədbirləri hamımıza çox xoş gəlir.

Sumqayıtdan gəlmiş əsgər Uğur Hacıyev:

– Sərhədlərimizin keşiyində ayıq-sayıq dayanan əsgərlərin yüksəkkalorili və keyfiyyətli qida məhsulları ilə təminatına xüsusi önəm verilir. O, bunu da diqqətə çatdırır ki, son illər ordu ilə xalq arasında yaradılmış sıx birliyi elə bu hissənin və şərurluların timsalında daha yaxından görmək olar. Müntəzəm olaraq rayon İcra Hakimiyyəti və sərhəd bölgəsində fəaliyyət göstərən digər dövlət qurumları, həmçinin Şərur camaatı əsgərlərlə görüşə gəlir, onlara sovqatlar gətirirlər.

*Əsgərlərdən ayrılırıq. Ordumuzun sabahkı qələbəsinə böyük inam hissi ilə. Bu inamı bizə yaşadan da elə əsgərlərimiz olur. Elə bir az əvvəl söhbətləşdiyim kənd adamlarının məğrurluğuna, doğma torpağa bağlılıqlarına həsəd aparıram, mən də qürurlanıram. Bir həqiqət düşüncəmə hakim kəsilir: qələbə arzumuza tezliklə çatacağımıza az vaxt qalıb...*

✍ **Muxtar MƏMMƏDOV**

*İstehsal müəssisələri*

## Naxçıvan "Tikiş" Açıq Səhmdar Cəmiyyətində keyfiyyətli məhsullar istehsal edilir

***Müstəqilliyimizin ilk illərində digər sənaye müəssisələri kimi, Naxçıvan "Tikiş" Açıq Səhmdar Cəmiyyəti də özünün böhranlı dövrünü yaşamışdır. Müəssisə ildən-ilə geri gedərək, nəhayət, bağlanmışdı. Uzun illər burada çalışan yüksəkixtisaslı kadrlar, eləcə də fəhlələr işdən çıxaraq digər sahələrdə iş axtarmalı olmuşdular. Nəticədə, bu müəssisə muxtar respublikanın yüngül sənaye sektorunda öz yerini itirmişdi.***



Ötən günlərdə bu müəssisədə olduq. Naxçıvan "Tikiş" Açıq Səhmdar Cəmiyyətinin direktoru Rövşən Abdinovla söhbət zamanı qeyd etdi ki, 1995-ci ildən sonrakı dövrdə muxtar respublikada özəl sektorun inkişafına göstərilən diqqət və qayğı nəticəsində müəssisə yenidən fəaliyyətini davam etdirməyə başladı. Xarici ölkələrdən qısa vaxt ərzində müasir avadanlıq gətirildi və yeni ixtisaslı kadr hazırlığına diqqət artırıldı, müəssisədə geniş abadlıq və quruculuq işləri aparıldı. Çəkilən zəhmət qısa müddətdə bəhrəsini verdi. Hazırda fabrik muxtar respublikanın sənaye potensialında öz yerini tutub. Burada muxtar respublikanın bir sıra ümumtəhsil məktəblərinin şagirdləri üçün məktəbli, ayrı-ayrı təşkilat və qurumlarda çalışan işçilər üçün geyim formaları hazırlanır.

Fabrikdə ahəngdar iş prosesinin təmin olunmasında dövlət dəstəyinin xüsusi rolu vardır. Sevindirici haldır ki, bu gün dövlət sahibkarları dəstəkləyir, onlara maddi kömək göstərir, güzəştli şərtlərlə kreditlər verir. Təbii ki, göstərilən diqqət və qayğı sahibkarları da, kollektivləri də ruhlandırır, onları yeni-yeni uğurlara səsləyir. Bu gün biz sahibkarlar qarşısında qoyulan əsas tələb yeni iş, istehsal sahələri yaratmaq, bununla da, əhalinin məşğulluğuna töhfə vermək, ölkəmizi, eləcə də muxtar respublikamızı iqtisadi cəhətdən gücləndirməkdir.

Fabrikin istehsal imkanları haqqında da danışan müəssisə rəhbəri bildirdi ki, burada dünyanın qabaqcıl şirkətlərinin müasir avadanlıqları quraşdırılıb. Biz vaxtaşırı olaraq sifarişçiləri də fabrikə dəvət edir, onlara iş prosesi, xammalın mənşəyi haqqında ətraflı məlumat veririk. Dövlətin maliyyə dəstəyi ilə fabrikin yeni tikilmiş istehsal binasında tamamlama işləri aparılıb, bu yaxınlarda avtomatik parça sərim xətti, alt və üst transportlu iplik kəsməli tikiş maşınları, qurutma konveyerləri, loqotip və yazı vurulması üçün boya avadanlığı, naxış və universal tikiş maşınları quraşdırılacaq.

Müəssisədə ən müasir texnologiyanın tətbiqi beynəlxalq standartlara cavab verən yüksəkkeyfiyyətli tekstil məmulatları istehsalına və hazır məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur.

Fabrikdə istehsal sahəsində hərbi səhra gödəkcələri, yay və qış səhra kostyumları, baş geyimləri, yataq örtükləri, hərbi köynəklər, gödəkcə və şalvarlar istehsal edilir, keyfiyyətə xüsusi diqqət yetirilir. Onu da qeyd edək ki, Naxçıvan "Tikiş" Açıq Səhmdar Cəmiyyətində işləyən işçilər, əsasən, texniki peşə məktəblərinin dərzilik kursunu bitirənlərdir.

Fabrikin təcrübəli ustalarından Sünbül Nəbiyeva, Gülnar Sadiqova, Sona Abbasova ilə söhbət zamanı onlar bildirdilər ki, Naxçıvan şəhərində bu müəssisənin fəaliyyət göstərməsi əhali tərəfindən razılıqla qarşılanır. Bu gün təkcə muxtar respublika paytaxtında onlarla istehsal müəssisəsi fəaliyyət göstərir. Təbii ki, yaxşı iş, gün-güzəran olan yerdə gələcəyə inam da vardır. Bir valideyn kimi biz də öz övladlarımızın gələcəyinə böyük ümidlə baxırıq. Görülən işlərə, bizə iş imkanı qazandırdığına görə dövlətimizə minnətdarıq.

✍ **Nail ƏSGƏROV**

***Naxçıvanda istehsal olunan yerli məhsullar muxtar respublikamızdan kənara da çıxarılır. Elə bu yaxınlarda paytaxt Bakı şəhərində Naxçıvan məhsullarının satıldığı yeni mağazanın açılması da nəinki naxçıvanlıların, həm də paytaxt sakinlərinin ən çox üz tutduğu ünvanlardandır.***

## *"Naxçıvan məhsulları"* mağazası paytaxt sakinlərini keyfiyyətli məhsullarla təmin etməyi qarşısına məqsəd qoyub

Muxtar respublikada istehsal müəssisələrinin sayının artması yerli məhsulların ixracı məsələsini də aktuallaşdırıb. Bu istiqamətdə ən mühüm addımlardan biri 2014-cü ildə atılıb. Belə ki, 25 iyun 2014-cü ildə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Cəmiyyətin yaradılmasında əsas məqsəd muxtar respublikamızda kiçik və orta sahibkarlığın inkişafına dəstək verilməsi, yerli məhsulların qablaşma vəziyyətinin müasirləşdirilməsi, keyfiyyətin yüksəldilməsi, həmin malların xarici bazarlara çıxışının təmin olunması, ticarət sövdələşmələrinin aparılması, yerli brendlərin yaradılması və digər sahələrdə mövcud fəaliyyətlərin təkmilləşdirilməsidir. Müəssisənin fəaliyyəti üçün Naxçıvan şəhərində 8 min kvadratmetr torpaq sahəsi və Sahibkarlığa Kömək Fondundan 260 min manat güzəştli kredit ayrılıb. Ötən dövr ərzində cəmiyyət tərəfindən bazar araşdırmaları aparılıb, bir neçə istiqamətdə pilot layihələri həyata keçirilib. Bu layihələrdə muxtar respublikada fəaliyyət göstərən kiçik istehsalçıların fəal istehsalat prosesinə cəlb edilməsi məqsədilə sifariş əsasında məhsul istehsalına üstünlük verilib. Görülən işlərin nəticəsidir ki, hazırda Naxçıvan məhsulları həm ölkəmizdə, həm də ölkəmizdən kənarda alıcılara təqdim olunur. Bakı şəhərinin Nizami rayonunda yeni fəaliyyətə başlayan "Naxçıvan məhsulları" mağazası da bu sahədə görülən işlərin məntiqi davamıdır.

İki aya yaxın müddətdə özünə kifayət qədər alıcı toplayan mağazanın məhsulları paytaxt sakinləri tərəfindən sevilərək alınır.

"Naxçıvan məhsulları" mağazasının Bakı şəhəri üzrə satış nümayəndəsi Emin Məmmədov bildirdi ki, mağazamızın paytaxt Bakıda fəaliyyətdə olan digər mağazalardan fərqi, burada məhz muxtar respublikada istehsal olunan məhsulların satışının təmin olunmasıdır. Mağazada olan məhsullardan yüksək keyfiyyəti ilə daha çox alıcı kütləsi qazanan "MM" əmtəə nişanı ilə tanınan ət və ət məhsulları xüsusi yer tutur. Hazırda mağazada "Naxçıvan" və "Doğma tam" adı ilə hisə verilmiş və bişirilmiş kolbasa, eləcə də sosiskalara tələbat daha çoxdur. Burada dadı dillər əzbəri olan bu məhsullar ilə yanaşı, konservləşdirilmiş Naxçıvan qovurması, Naxçıvan duzu, müalicəvi əhəmiyyətə malik mineral suaları, baldırğan və çaşır turşuları, pendiri və başqa məhsulları əldə etmək olar. Mağazada, həmçinin hər kəs tərəfindən sevilən kəklikotu, həmərsin, quru meyvələr və digər məhsullar da alıcıların rəğbətini qazanıb.

**Xəbərlər şöbəsi**

# Saç ağartdın, ömür tükətdin söz yolunda, MƏMMƏD ARAZ

***Beləcə, bir ömrün son mənzilinə, Azəri torpağı, sən ötür məni... Şair ömrünün sonuncu günü – 1 dekabr 2004-cü il. Qələminin qüdrəti və sözünün gücü ilə yaddaşlara əbədilik yazılan Xalq şairi Məmməd Arazın vəfatından 13 il ötür. Unudulmaz şairin xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.***



Şairlər xalqının səsidir, – deyirlər. Asan deyil axı həm xalqın ağrısını, acısını çəksən, həm də onu qələmə alasan, elə hey yazasan, dağürəkli, daşürəkli olasan gərək. Elə onun da bəxtinə xalqının səsini ucaldanlardan olmaq yazılmışdı. "Yazda ölüm asan olur, Allah, yaza saxla məni", – deyirdi Məmməd Araz. Kim bilir, bəlkə, elə dərdləri özündən daha böyük olan dünyanı son dəfə gözəl görmək üçün idi bu arzu.

Payızda gəlmişdi dünyaya, 84 il bundan öncə, bir oktyabr günü. Bəlkə də, elə o vaxt "kimdənsə tez durub kiminsə uşağı qulağına daş atmışdı qoca dünyanın. Və elə oradaca pıçıldamışdı: dünyaya yeni bir dünya doğuldu". Gündoğandan günbatana yayılmışdı bu xəbər. Arazlar, Həkərilər səsindən səs vermiş, qayalar məğrurluğundan, ildırımlar inadından pay vermişdi. Və hansısa bir qarı bu xəbəri elə-obaya yaymışdı. Və beləcə, İnfil kişinin bir oğul övladı dünyaya gəlmiş, adını da Məmməd qoymuşdular.

Söz yolunda fəhlə idi əli qabar, dili qabar. Şum yerindən yığılmışdı misraları qabar-qabar. O, şeirin, şeir onun özü idi. O, "mən də şeirin xidmətçisi, mən də şeirin yiyəsiyəm", – deyən Məmməd Araz idi.

Vətən dərdini gündoğandan günbatana hayqıranda dizi büdrəmiş, yazının yaddaşına köçürmək istəyəndə əli əsmişdi. Ona görə də "Ölə-ölə yazmadın, yaza-yaza öldün", Məmməd Araz! Əslində, sənin ölümün ölümsüzlüyün ömrünü bir az daha uzatmaq üçün idi.

Səndən yazmaq istəyirəm. Baxışların dolaşır misralarının arasında. Şeirlərin hər bəndində, hər bərəsində çırpıntıların, harayı, arzuları duyuram. "Mən üsyandım, indi dözüm olmuşam", – deyən Arazın dözümünün səddini görürəm. Hədər yerə söyləməyiblər ki, şəxsiyyəti ilə yaradıcılığı üst-üstə düşən şair deyəndə, ağıla ilk gələnlərdəndi Məmməd Araz. Həyatının bütün ağrı-acısını ucqar bir dağ kəndində yaşayan o qarayanız uşağın xalqın sevimli şairi mərtəbəsinə yüksələnə qədər yaşadıqları, uğradığı haqsızlıqlar, umu-küsü necə də sıralanıb bölgülərə, vəznlərə.

"Bir şairin əsl bioqrafiyası şeirləridi", – deyirdin, şair. Kim daha yaxşı tanıdar səni şeirlərindən özgə...

*Xəyanət nə, badalaq nə-tanımadım,*
*Qibtələr nə, həsədlər nə-uzaq, uzaq.*
*Paxır nədi, paxıllar nə-heç görmədim –*
*Və bunların hamısına qoşul deyən*
*Təriflərə yem olmadım.*

Bir şairin həyat və yaradıcılıq qayəsi bundan daha tutarlı necə köçürülərdi şeirin yaddaşına. "Bu torpağın yumruq boyda daşı" olan şairin ürəyində, fikrində hansı hisslər, hansı fikirlər əbədilik daşlaşmadı ki... "Fikrimin çəkisi çəkimdən ağır, dartmaq da çətindir, atmaq da çətin". O fikirlər səni nə yazmağa, nə də rahat yaşamağa qoydu, şairim! "Ağır bir sənətə könül bağladın, bəxtinə dərdin də ağırı düşdü". O dərdin adı sənin bənd-bənd, misra-misra dilə gətirdiyin Vətən dərdi idi. Bəlkə, elə bunun üçün "bu torpağa səpilməyə dən kimi acdın, bu torpağın dan yerində dəfn olunmağa bu qədər möhtac".

"Mən sevgi səpmiş idim bu torpağa, bir ürəyə düşdümü heç bircə dənim?" nigarançılığı var idi şair Arazın. O sevginin adı Vətən, torpaq, yurd, el-oba idi. Ancaq bütün bunların içindən bir sevgi də öz ünvanına baş qaldırdı. İnsanların qəlbində əbədilik şeir-söz-Məmməd Araz sevgisi cücərdi. "Nə vaxtsa dünyanın duru dəmində yenidən dünyaya qayıdacağam" əminliyi vardı əkilmiş o misralarda. Səsi torpağın səsinə köklənmişdi, öz ömrünə, həyatına deyil, xalqının, Vətəninin taleyi ilə birləşmişdi şair qələmi. O, artıq bir əşya deyil, "ox", "nizə", "söz yoldaşı", "mübarizə"nin adı idi. Bəzənsə, qələmi rəssam fırçasından daha yatımlı olurdu, şeirləri canlı tabloları əvəz edirdi. Nahaqdan deməyiblər ki, Məmməd Araz şeir yazmır, təbiətin şəklini çəkirdi...

*Gündoğandan günbatana qolumu açam.*
*Deyəm: indi qalan ömrü zərrəsinəcən.*
*Ölümlərə*
*baş əymədən yaşayacağam...*

– deyirdi, yaşadı da. Bir tək sözün qulluğunda durdu, bir tək poeziyaya baş əydi. Şeir yazmadı, şeirin özü oldu. "Yanın, işıqlarım"ı, "Sevgi nəğməsi"ni götürüb çıxmışdı bu dəvə yalın belinə. Ancaq özü də anlamışdı, bu yorğun yolçunun yolu yoxuşdu. Eləcə üzü qüruba getmişdi, üzü əbədiyyətə doğru. Xətainin qılıncından yoğurulmuşdu qələmi, söz-söz, kitab-kitab dirçəlirdi. 30-a yaxın kitab, çoxsaylı publisist yazılar, tərcümələr və ömrünün 30 ilini bağışladığı "Azərbaycan təbiəti" jurnalı şair ömründə geridə qalanlar sırasına yazıldı.

Söz yolunda ömür tükədən şairin ünvanına qibtələr də, həsədlər də az deyildi. Hər kəsin deyə bilmədiyini deməyin "cəzası" idi, bəlkə də, bu. Adını, imzanı asanlar, kölgəni qılınclayanlar, rəddini qazanlar vardı, şair. Və sən bunların fərqində idin. Sən öz dünyana – Məmməd Araz dünyasına qapıldın. O dünya ki onun ocağında bişən nemətlərdən sənin payına tüstü, his düşürdü. Ancaq sən yenə də Vətən torpağına sığınırdın. "Kürək söykəyənin ana torpağa, haqqı yox ayrı bir təltif istəsin!" Qələmini gözünə çıraq eləmişdin, şair Araz. "Sapanda qoyulan beş-on illik daşdın, düyünlənib yönəlmişdin yad əməllərə".

Vaxtın o vaxtı oldu ki, "Vaxt olur götürüb kağız-qələmi, qaçmaq istəyirəm yer kürəsindən" hissinə qapıldın. Ancaq o anlarda belə, üz tutduğun tək ünvan ana yurdun idi. Hədər yerə yazılmamışdı "Ana yurdum, ağuşuna tələsdim". Tələsdin, elə dünyadan köçməyə də.

Şair qələmindən süzülən sözlər hələ mürəkkəbi qurumadan şeirsevənlərin ürəyinə hopdu məlhəm kimi. Ən çətin zamanlarda belə, insanlar sənin şeirinlə silahlandı. Sənin şeirin "bir əsgər, bir general" ola bildi. Səsin bu torpağın səsinə köhləndi, şeirlərin vətəndaşlıq andı oldu, "gözün yatsa, kirpiyini oyaq saxla", – deyib səngər, sərhəd oldun, yurda əl uzadan məkrli qüvvələrə. "Ayağa qalx, Azərbaycan!" nidası vardı şeirlərində. Xatırladırdın, şair: "bunu bizə zaman deyir, məzarından baş qaldıran babam deyir". Və şair özündən əvvəl və sonra gələcək bütün nəsillərə səslənirdi, hayqırırdı, "səndən qeyri biz hər şeyi bölə billik, səndən qeyri biz hamımız ölə billik". Özü hakim, özü dustaq olurdu, əli çatmayanda, ünü yetməyəndə özünü günahkar sayırdı, özünə hesabat verirdi, "Məni bağışlayan olarmı? Çətin".

Böyük insan, dahi şair, şeirimizin vətənpərvərlik məktəbi, Nəsimi harayının əks-sədası, Sabir cəsarətli, Nizaminin, Füzulinin "qoşunlarını" gələn nəsillərə çatdırmağa çalışan böyük söz ustadı, saç ağartdın, ömür tükətdin söz yolunda.

Xalq şairimiz haqqında yazılmış xatirələri, şairin publisistik yazılarını, əlyazmalarını vərəqləyirəm. Bir yazı diqqətimi çəkir, Məmməd Arazın əlyazmalarının içərisindən. "Əgər bir ölkənin başçısı sözü uca tutursa, yaradıcı insanların əməyini dəyərləndirirsə, onda həyatın, yaşamağın mənası daha da artır". Söhbət ədəbiyyatımızın böyük hamisi və bilicisi ulu öndər Heydər Əliyevdən gedir. Fikrin davamında yazır: "Qollarımdan əlli min dost əli yapışıb. Onlardan ən güclüsü, ən xeyirxahı məhz ölkə başçısı cənab Heydər Əliyevin əlidir". Xalq şairinin həm şəxsiyyətinə, həm də yaradıcılığına böyük diqqət göstərən ulu öndər 1995-ci ildə şairi ömür-gün yoldaşı ilə birgə dövlət hesabına Almaniyaya müalicəyə göndərmiş, şairi Vətənin ən ali mükafatına "İstiqlal" ordeninə layiq görmüşdü. Məmməd Arazın yaşayışını, həyat tərzini daha da yaxşılaşdırmaq üçün yeni müasir mənzil ilə təmin etmişdir. Ancaq Xalq şairinin həyatına, yaradıcılığına olan diqqət hər gün bir az da artdı. Bu gün istər ölkə başçısı, istərsə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən şairin yaradıcılığına böyük ehtiram var. Xalq şairinin yaradıcılığına göstərilən dövlət qayğısının ən bariz nümunəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə şairin dünyaya göz açdığı Nursu kəndində onun gözoxşayan ev-muzeyi tikilərək Məmməd Araz ziyarətçilərinin istifadəsinə verilmişdir.

Paytaxt Bakıda, həmçinin çox sevdiyi Naxçıvanda adının əbədiləşdirildiyi ünvanlar var.

*"Mən uca dağlara babam demişəm,*
*Ərköyün balayam dağlar yanında",*

– deyən Məmməd Araz bu dağların ətəyində ünvan tapdı. Qələm dostuna müraciətlə yazdığı "Şair, qayalara, dağlara söykən", əslində, özünə məsləhəti idi. "Körpülənin, ay Arazlar, məni qoymayın təklənəm", – deyib söykəndiyi yer də bura oldu. Və bu ad şair qələminə qoşuldu. Nursu öz şair oğlu ilə dünyanı gəzdi, dünya Nursunu Məmməd Arazın ürəyində, sənətinin sehrində gördü, tanıdı. Bəzən düşünürəm ki, ən böyük ekspozisiya zalı elə təbiətdi, ən dəyərli eksponat elə şairin bənd-bənd, misra-misra şeirləridir.

"Əgər gücüm çatsa, bu torpağı çiynimə alıb dünyanın sənət sərgilərinə çıxarardım, onda bu torpağın rəngləri ilə dünyanı heyrətləndirərdim", – deyirdi xalqın şairi. Məmməd Araz bu torpağı çiyninə alıb dünyanın şeir sərgilərinə çıxardı, sözün, fikrin gücüylə bu torpağın xəritəsini çəkdi. "Ürəyimi bu torpağa dəfn edim, demək, nə zamansa, bu torpaqda söz göyərəcək", – deyirdi şair Araz. Yeni sözlər, yeni fikirlər göyərəcək. Ancaq hər zaman ilk xatırlanan məhz elə Məmməd Araz olacaq.

Məmməd Araz özündən əvvəl və özündən sonra yazan nəsil üçün poetik körpü oldu. Şairin şeirlərinə yazılmış şeirlər və şəxsiyyətinə həsr olunmuş məqalələr, bəlkə də, elə şairin özünün yazdığı qədərdir. Gələn nəsillər üçün bir növ ilham çırağı oldu şairin qələmindən süzülənlər. Sadəcə, şairlərin, yazıçılarınmı? Ürəyinin səsini dinləməyə çalışan hər kəsin. Daha neçə şair, rəssam, heykəltəraş Məmməd Arazdan bəhrələnəcək. Hələ biz Məmməd Araz dühasının izlərini çox görəcəyik, eşidəcəyik. Ancaq nə zamansa, hansısa bir rəssam sözün şəklini çəkməyə çalışsa, mütləq o tablodan Məmməd Araz boylanacaqdır.

Vətəndən ilham aldı, Vətəndən yazdı, yazıb-yaratdıqları da Vətənə qaldı. "Vətənə qaldısa, yada qalmadı", – dedi şair Məmməd Araz.

"Əsl poeziya oddu", – deyirlər. Od oldu, su oldu ədəbiyyatda. Yazıb-yaratdıqları ilə özünə əbədilik yaşamaq haqqı qazandı.

**Fizzə BAĞIROVA**
***Naxçıvan Dövlət Televiziyasının əməkdaşı***

***Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin texniki işçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.***

## Maarifləndirici tədbir təşkil olunub

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov açaraq bildirib ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Təhsil müəssisələri üçün müasir üslubda yeni inzibati binalar tikilir, təhsil ocaqları üçün zəruri şərait yaradılır, tədris prosesində ən yeni texnologiyalar tətbiq olunur.

Tədbirdə Naxçıvan Şəhər Polis İdarəsinin rəis əvəzi, polkovnik-leytenant Kamil Məmmədəliyev və Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, kapitan Rəcəb Səfərov çıxış ediblər. Çıxışlarda bildirilib ki, hər bir müəssisədə olduğu kimi, təhsil müəssisələrində də qaz və texniki təhlükəsizlik, eləcə də yanğın təhlükəsizliyi qaydalarına əməl olunması qarşıda duran vəzifələrdən biridir. Buna görə də iş günü və dərslər qurtardıqdan sonra növbətçi işıqlandırma və qurğuları istisna olmaqla, bütün elektrik qurğu və cihazlarının dövriyyədən ayrılması, həmçinin mövcud yanğınsöndürmə qurğuları və vasitələrinin daim istifadə üçün yararlı vəziyyətdə saxlanması mövzusunda mütəmadi olaraq maarifləndirici tədbirlər həyata keçirilir.

Qeyd edilib ki, qarşıdan gələn qış mövsümü ərzində təhsil müəssisələrində yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Bütün inzibati binalarda olduğu kimi, təhsil müəssisələrində də mövsümə hazırlıqla bağlı bir sıra zəruri tədbirlər həyata keçirilməlidir. Belə ki, qış mövsümü başlanmazdan əvvəl bütün isitmə qurğuları, cihazları diqqətlə yoxlanılmalı nasazlıqlar aradan qaldırılmalıdır. Nasaz soba və isitmə cihazlarının istismar olunmasına yol verilməməlidir. Qazanxanalarda qurğulara texniki xidmət göstərilməli, nasaz cihaz və avadanlıqlar təmir olunmalı və ya yenisi ilə əvəz edilməli, qazanxanaların yanğın təhlükəsizliyi üçün zəruri tədbirlər görülməlidir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**✍ Nail ƏSGƏROV**

## Daxili bazarın qorunması və gömrük hüquqpozmalarına qarşı mübarizə tədbirləri davam etdirilir

Gömrük orqanları tərəfindən daxili bazarın qorunması və gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizə tədbirləri davam etdirilir. Bu məqsədlə idxal istiqamətində muxtar respublikamıza gətirilən malların keyfiyyətinə, standartlara uyğunluğuna xüsusi diqqət yetirilir, müvafiq dövlət orqanlarının rəyi olmadan gətirilən, idxalı qadağan olunan və mülki dövriyyəsi məhdudlaşdırılan mallar barəsində qanunvericilik çərçivəsində tədbirlər görülür.

Bu istiqamətdə görülən işlərin davamı olaraq noyabrın 29-da keçirilən növbəti məhvetmə tədbirindən öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və digər dövlət qurumlarının əməkdaşlarından ibarət birgə komissiya gömrük orqanları tərəfindən saxlanılmış mallara baxış keçirmiş, 4479 ədəd közərmə lampası, 420 dəst hərbi təyinatlı köynək, 226 ədəd ov mərmisi, 73 ədəd elektroşok-fənər, 76 ədəd suvenir, 8 ədəd bıçaq, 8 ədəd balıqçı toru, 7 ədəd dəyənək, 1 ədəd qandal, 1 ədəd durbin, 1 ədəd DVD, 7611 tablet dərman preparatı və 15 kiloqram kalium-permanqanat maddəsi akt əsasında aidiyyəti qurumlara təhvil verilmişdir.

Birgə komissiyanın rəyinə əsasən məhvinə qərar verilmiş mallar isə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə yandırılmışdır. 2025 ədəd meyvə şirəsi keyfiyyəti standartlara cavab vermədiyindən və üzərində istifadə müddəti göstərilmədiyindən, 240 litr üzüm sirkəsi istifadə müddəti bitdiyindən, 790 ədəd oyuncaq yumurta yararsız olduğundan yandırılmışdır. 13 ədəd gözyaşardıcı qaz balonu, 3320 ədəd pirotexniki vasitə müvafiq dövlət orqanlarından xüsusi icazə sənədi alınmadan gətirildiyi, 10 min tablet dərman preparatı yararsız olduğu üçün məhv olunmuşdur. Milli mentalitetimizə zidd olan və dini dəyərlərimizlə uzlaşmayan ədəbiyyat və vasitələrin muxtar respublikaya gətirilməsinə qarşı mübarizə tədbirləri çərçivəsində saxlanılmış 9 adda müxtəlif vasitələr və 327 ədəd CD də yandırılmışdır.

Məhv edilən mallar arasında kontrafakt, başqa sözlə, saxta mallar da yer almışdır. Məhz 425 kiloqram yuyucu və təmizləyici vasitələrin istehsalının və qablaşdırılmasının saxta yolla aparıldığı müəyyən olunmuş, üzərində "Ariel" əmtəə nişanı olan 2 rulon polietilen paket, müxtəlif geyim firmalarına aid ümumi çəkisi 31 kiloqram kağız etiket və 8 ədəd plomb saxta olduğundan yandırılmışdır. Xarici ölkələrdən muxtar respublikamıza köhnə avadanlıqların və geyim əşyalarının gətirilməsinin qarşısının alınması məqsədilə saxlanılmış 4 ədəd qaz sobası, 2 ədəd qaz ocağı, 4 ədəd suqızdırıcı, 3 ədəd dijital aparatı da məhv edilmişdir.

Cari ildə gömrük orqanları tərəfindən milli və iqtisadi təhlükəsizliyin, ictimai asayişin və insanların sağlamlığının qorunması istiqamətində tədbirlər də davam etdirilmişdir. Gömrük sərhəd-buraxılış məntəqələrində ayrı-ayrı şəxslərdən saxlanılmış 102 ədəd beşbarmaq, 20 ədəd bıçaq və 11 ədəd qılınc və mənfur Ermənistan Respublikasına aid 6 adda, ümumilikdə, 352 ədəd kağız və dəmir pullar, mobil nömrə kartları, 206 qutu siqaret və sair xüsusi qaydada məhv olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi əmin edir ki, qanunvericiliyin tələblərinin, istehsalçıların və istehlakçıların hüquqlarının müdafiəsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təminatı, insan sağlamlığının və ətraf mühitin qorunması istiqamətində işlər bundan sonra da davam etdiriləcək, gömrük qaydalarının pozulması hallarına qarşı lazımi tədbirlər görüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür*

## Sağlam həyat tərzi QİÇS-lə mübarizədə başlıca amildir

***Hər il dekabr ayının 1-i Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qeyd edilir. QİÇS-lə Mübarizə Gününün məqsədi dünya ictimaiyyətinin diqqətini bu problemin həllinə cəlb etməkdən, insanları maarifləndirməkdən ibarətdir.***

QİÇS-in yaranmasına və yayılmasına daha çox narkomaniya, qeyri-sağlam həyat tərzi, antisanitariya, natəmizlik səbəb olur. Bundan başqa, yoxlanmamış donor qanın köçürülməsi zamanı birdəfəlik şprislərin təkrar istifadəsi, steril olmayan tibbi alətlər, döymə, qulaq və bədənin digər üzvlərinin deşilməsi, manikür, gigiyenik tələblərə cavab verməyən əşyalardan istifadə və başqa amillər də yoluxmaya gətirib çıxara bilər.

Qeyd edək ki, 1996-cı il aprelin 16-da ölkəmizdə “İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (QİÇS) yayılmasının qarşısının alınması haqqında” Qanun qəbul olunub. 2010-cu ildə isə qanun yenidən işlənərək bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilib.

Naxçıvan Muxtar Respublikasında insanların QİÇS-ə yoluxma səviyyəsi aşağı həddədir. Lakin əksər ölkələrdə bu xəstəliyin sürətlə çoxalması muxtar respublikada da QİÇS-lə mübarizəni aktuallaşdırır. Ona görə də QİÇS-in profilaktikasına dair epidemioloji nəzarət və təbliğat gücləndirilir, xəstəliyin vaxtında aşkar edilməsi məqsədilə bütün donorlar, ümumiyyətlə, risk qrupuna aid olan bütün şəxslər laborator müayinələrə cəlb edilir. Bu xəstəliklə yaşayan şəxslərə profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsi işinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsi fəaliyyət göstərir. Mərkəzin yeni binasında QİÇS-lə mübarizə şöbəsi üçün də müasir iş şəraiti yaradılmış, ən müasir laboratoriya avadanlıqları quraşdırılmışdır.

Bu gün muxtar respublikada nikaha daxil olmaq istəyən şəxslərin hepatit B, hepatit C, o cümlədən QİÇS üzrə tibbi müayinələri diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsi tərəfindən bu ilin ötən dövründə 32 min 778 nəfər müayinə olunmuş, bu zaman QİÇS-ə yoluxma halları qeydə alınmamışdır. Həmçinin bu dövrdə QİÇS-lə mübarizə şöbəsinin həkimləri tərəfindən nikaha daxil olmaq istəyənlərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlər verilmişdir. Bu tədbirlərin həyata keçirilməsində məqsəd, yəni nikaha daxil olmaq istəyən şəxslərdə xəstəliklərdən hər hansı biri aşkar edilərsə, həmin xəstəliyin ailə qurduqdan sonra yarada biləcəyi fəsadların aradan qaldırılması, uşaqların, habelə ailənin digər üzvlərinin riskli hallardan qorunmasını təmin etməkdən ibarətdir.

Maarifləndirici tədbirlərin həyata keçirilməsi xəstəliyin yayılması və qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Buna görə də muxtar respublikada profilaktik tədbirlərlə yanaşı, səhiyyə maarifi, əhalinin sağlam həyat tərzi də diqqət mərkəzində saxlanılır. Muxtar respublikada son illər müasir təhsil və idman infrastrukturu yaradılmış, gənclərin asudə vaxtının səmərəli təşkili təmin edilmiş, ən ucqar dağ kəndlərində belə, zəngin fonda malik kitabxanalar istifadəyə verilmişdir. Bu da ölkəmizin gələcəyi olan gənclərin savadlı, dünyagörüşlü və sağlam böyüməsinə imkan verir. Artıq muxtar respublikada zərərli vərdişlərdən uzaq, bilikli və sağlam həyat tərzi keçirən vətənpərvər gənc nəsil yetişir. Gənclər yüksək təhsil alır, beynəlxalq idman yarışlarında ölkəmizi layiqincə təmsil edirlər.

Unutmayaq ki, hər bir insanın sağlamlığı, ilk növbədə, onun özündən asılıdır. Normal həyat tərzi sürmək üçün hər kəs daim öz sağlamlığının qayğısına qalmalı, zərərli vərdişlərdən uzaq olmalı, gigiyena və sanitariya qaydalarına əməl etməli, xüsusilə də QİÇS-ə qarşı mübarizədə aktivlik göstərməlidir.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Elmi-praktik konfrans keçirilib



*Naxçıvan Dövlət Universitetində 1 dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.*

Sonra Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva çıxış edərək bildirib ki, QİÇS-lə mübarizə istiqamətində beynəlxalq təcrübədən istifadə edən Azərbaycan bu xəstəliyə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasına daxildir. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi, Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə Mübarizə və Profilaktika (QİÇS) Mərkəzi üçün ayrıca binaların tikilməsi bu xəstəliklə mübarizənin səmərəli təşkilinə xidmət etməklə yanaşı, muxtar respublikada səhiyyəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Tədbirdə Təməl tibb fənləri kafedrasının müəllimi Şəfiqə Süleymanova, muxtar respublika Yoluxucu Xəstəliklər Mərkəzinin həkimi Adil İbrahimov və başqaları çıxış ediblər.

Konfrans mövzu ətrafında müzakirə və diskussiyalarla davam edib.

**Səadət ƏLİYEVA**

## Könül işığına sığınanlar

### Muxtar respublikada sağlamlıq imkanları məhdud insanlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar



***Sağlam həyat Tanrının insana bəxş etdiyi ən dəyərli nemətdir. Lakin bəzən Tanrıdan dilədiyimiz bu əziz nemət hər kəsə nəsib olmur. Sağlamlıq imkanları məhdud olan insanların bəziləri vətən uğrunda döyüşlərdə əlil olub, bəziləri isə müxtəlif qəzalar nəticəsində... Kimisi də elə dünyaya göz açandan bəri insanlara tutunaraq yaşamağa çalışır. Əslində isə onları görünən fiziki qüsurlarından çox görünməyən daxili yaraları, mənəvi yorğunluqları incidir. Həmin insanların mövcud komplekslərindən xilas olmaları, sağlam şəxslərdən geri qalmamaları, sosial mühitdən uzaqlaşmamaları üçün dövlət tərəfindən onlara xüsusi qayğı göstərilir, maddi dəstəklə yanaşı, həm də mənəvi dəstək verilir.***

Bu kateqoriyadan olan insanlara muxtar respublikamızda göstərilən diqqət və qayğı, həqiqətən də, qürurvericidir. Böyük fəxrlə qeyd etmək istərdim ki, Qarabağ müharibəsi əlilinin həyat yoldaşı kimi dövlətimizin hərtərəfli qayğısı nəticəsində bu qəbildən olan insanlara, eləcə də onların ailələri üçün yaradılan rahat, firavan həyat şəraitinin yaxından şahidi olduğumdan bununla bağlı düşüncələrimi bu yazıda əks etdirmək qərarına gəldim.

Muxtar respublikamızda əlillərin və bu qəbildən olan uşaqların müayinə və müalicəsi üçün xüsusi bərpa mərkəzləri fəaliyyət göstərir. Hazırda bu kateqoriyadan olan vətəndaşların həyata nə qədər böyük ümidlərlə baxdığının şahidi olmaq üçün artıq uzun illərdir ki, belə insanların qeydinə qalan mərkəzlərə üz tutmaq kifayət edir. Yaxın günlərdə olduğumuz Əlillərin Bərpa Mərkəzində bir daha bunu gördük. Mərkəzin baş həkimi Mətanət Səfərova bizə müəssisə haqqında ətraflı məlumat verərək dedi ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyası sosial sahədə aparılan təqdirəlayiq işlərin əsas göstəricilərindən biridir. Elə 2004-cü ilin may ayında Əlillərin Bərpa Mərkəzinin istifadəyə verilməsi də dövlətimizin bu qəbildən olan insanlara qayğı və diqqətinin bariz nümunəsidir. Mərkəz muxtar respublikada yaşayan əlillərə kompleks tibbi-sosial reabilitasiya xidməti göstərmək yolu ilə onların sosial statusunun bərpa edilməsi və cəmiyyətə inteqrasiyası, tibbi-sosial, peşə diaqnostikası, xəstəlikləri nəzərə alınmaqla dietik və rasional qidalanmasının təşkili, yaş və sağlamlıqlarına uyğun mədəni-kütləvi tədbirlərə, müalicə idmanına cəlb edilməsi, onlarda sağlam həyat tərzinin təbliği istiqamətində işlər görür.

Mətanət Səfərova onu da qeyd etdi ki, mərkəzdə gündəlik olaraq təyin olunmuş tibbi prosedurların





yerinə yetirilməsinə həkimlər tərəfindən ciddi nəzarət edilir. Bunlardan əlavə, müalicə alan şəxslərin asudə vaxtlarını səmərəli keçirmələri üçün burada şahmat, televizor və mütaliə otaqları da var. Mərkəzdəki fiziki imkanı məhdud olan gənclər idmanın boccia, qol güləşi və digər müxtəlif növlərinə maraq göstərirlər.

Baş həkimlə bir qədər söhbətimizdən sonra onunla birlikdə müayinə və müalicə otaqlarına baş çəkdik. Mütaliə otağının önündən keçərkən, kitab oxumağı ilə diqqətimi çəkən bir oğlana yaxınlaşdım. Həyatın ən gözəl çağını, çılğınlıq, həyəcan, yaradıcılıq, maraq dolu gəncliyi yaşamağa heç bir əngəlin sərhəd olmadığını bu gəncin dilindən eşitmək bir vətəndaş kimi məni olduqca fərəhləndirdi.





Ordubad rayonundan olan I qrup əlil Niyazi Hüseynovun dediklərindən:

“İnsan həyatı sınaqlarla doludur. Bu sınaqların ən çətini, dəyərdim ki, insanın sərbəst, kimsədən asılı olmadan müstəqil yaşamasından məhrum olmasıdır. Bir zamanlar özümü kimsəyə gərək olmayan, heç kəsə yardımı toxuna bilməyən, əlindən bir iş gəlməyən biri kimi görürdüm. Bu, təbii ki, illər əvvəlki düşüncələrim idi. İndi özümü sağlam insanlardan fərqli hesab etmirəm. Mənim fikrimcə, əsl sağlamlıq, insanın düşüncə və iradəsinin sağlamlığıdır. Məncə, hər kəs bütün sərhədləri öz iradəsinin gücü ilə aşa bilər. Vəziyyətimi dərk etdiyim ilk günləri xatırlayıram... O zamanlar fikrimdən ata bilmədiyim yalnız bir düşüncə var idi, tez-tez özümə sual verdiyim, uzun-uzadı düşünsəm də, heç vaxt cavab tapa bilmədiyim bir sual... Düzdür, bunu qəbul etmək çətin olsa da, bu, reallıqdır. Bir gün nə vaxtsa valideynlərimiz yanımızda olmayacaqlar. Bunu dilə gətirmək ağırdır, lakin həyatın qanunu budur, onları nə vaxtsa itirəcəyik... Bəs yaxşı onda mənə kim həyan olacaq?! kim sahib çıxacaq, kim qayğımı çəkəcək, kim dəstək olacaq?! Baxın, illər əvvəl bu suallar idi beynimi didib-dağıdan... Artıq o düşüncələrin üzərindən illər keçib. Keçən o illər özü ilə bərabər beynimi qurcalayan həmin sualları da silib, aparıb. Hər keçən gün bizim üçün yaradılan şəraiti gördükdə könlüm açılır. Nə vaxtsa öz doğmalarımdan ayrı düşsəm də, əminəm ki, mənə sahib çıxan, qayğıkeş, mənim əli uzadan dövlətimizin qayğıkeş insanlarının dəstəyi ilə bütün əngəlləri aşacağam”.

Daha bir həmsöhbətimiz isə sağlamlıq imkanı məhdud olan Qarabağ müharibəsi əlili Məhəmməd Əliyevdir. Onun dediklərindən: “Hər il müayinə olunmaq üçün bu sağlamlıq ocağına üz tuturam. Mərkəzdə müalicəm üçün şərait yüksək səviyyədədir.

Əvvəllər bu qəbildən olan insanlara belə diqqət, qayğı yox idi. Bilmirdik ki, sağlamlığımızla bağlı çətinliklərə sinə gərək, yoxsa maddi tələbatlarımızı ödəmək üçün nəsə bir iş görək? Şükürlər olsun bu günümə, o günlərin yaşatdığı mənəvi yorğunluqları artıq çoxdan unutmuşam. Bu gün dövlətimizin diqqət və qayğısı sayəsində bizim üçün yaradılan istər maddi, istərsə də mənəvi problemlər aradan qaldırılıb. Hazırda mənim kimi neçə-neçə insan üçün fərdi evlər və yeni yaşayış binaları tikilib, istifadəmizə verilib, rahatlığımız üçün minik avtomobilləri ilə təmin olunmuşuq.Yaradılan bu şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm”.

Sağlamlıq ocağından nikbin ovqatla ayrılıram. Bu gün buradakı sağlamiradəli insanların ürəkdolusu razılıqları, həyatsevər, nikbin söhbətləri, kollektivin əməyi unudulmaz bir xatirətək yaddaşıma həkk olundu. Mərhəmət dolu qəlb sahiblərinin bu qəbildən olan insanlar üçün yaratdıqları imkanlar dövlətimizin uğurlu siyasətinin əsas istiqamətlərindəndir. Son illərə nəzər salsaq, görərik ki, Naxçıvanda əmək qabiliyyətini itirmiş vətəndaşlar üçün həyata keçirilən tədbirlər bu insanların cəmiyyətin fəal üzvünə çevrilməsi ilə nəticələnib. Bu istiqamətdə atılan uğurlu addımlar onların komplekslərdən qurtulmalarına nail olmalarında, maraq göstərdikləri sahələrdə uğur qazanmalarında və ən əsası, özlərinə inam hissinin artmasında böyük rol oynayır.

**Gülcamal TAHİROVA**

***İtmişdir***

Babək rayonunun Zeynəddin kənd sakini Muxtarov Arzu Məmməd oğlunun adına 9 dekabr 2016-cı il tarixdə verilmiş MH-0051660 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 973